# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**____ nömrəli ____________2017-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

## ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 060304 - Solo oxuma**
**(sahələr üzrə)**

**BAKI – 2017**

## 1.Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060304 - Solo oxuma (sahələr üzrə)** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə və «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**İTP–** ixtisas üzrə Təhsil Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK–** peşə kompetensiyaları

## 2. 060304 - Solo oxuma (sahələr üzrə) ixtisasının xarakteristikası

**2.1. 060304 - Solo oxuma (sahələr üzrə) ixtisasının xarakteristikası**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060304 - Solo oxuma (sahələr üzrə)**<br>**İxtisaslaşmalar:**<br>- akademik vokal<br>- milli vokal<br>- xanəndəlik<br>- aşıq sənəti | Magistr | 1,5 il | 90 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası.**
Magistr vokal ifaçılığı sahəsində yüksək peşəkarlığa malik olmalı, peşə hazırlığı tələb edən yaradıcılıq işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**
**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara **(ÜK)** yiyələnməlidir:
- kollektivdə işləmək **(ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq (**ÜK-2);**
- beynəlxalq arenada işləmək **(ÜK- 3);**
- fəal sosial mobillik **(ÜK-4);**
- hüquqi biliklər və etik normalara malik olmaq **(ÜK-5);**
- yeni ideyalar irəli sürmək **(ÜK-6)**
- mustəqil işləmək **(ÜK-7);**
- yaradıcılıq və pedaqoji işlərin təşkilində, kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq **(ÜK-8);**
- təşəbbüskarlıq və liderlik **(ÜK-9);**
- peşə fəaliyyəti ilə əlaqədar işi təşkil etmək və planlaşdırmaq **(ÜK-10);**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına **(PK)** yiyələnməlidir:

***Yaradıcılıq sahəsi üzrə:***
**Akademik vokal-**
- ifaçılıqda yüksək peşəkarlığa **(PK-1);**
- akademik vokal ifaçılığın bütün imkanlarından istifadə etmək bacarığına **(PK-2) ;**
- akademik vokal ifaçılıq sənətinə aid elmi-nəzəri ədəbiyyatdan istifadə etmək bacarığına **(PK-3) ;**

- solo və ansambl ifaçısı, xor solisti, opera artisti qismində çıxış etmək səriştəsinə **(PK-4);**
- yaradıcılıq prosesində sənətşünaslıq üzrə nəzəri biliklərdən istifadəyə **(PK-5);**
- akademik vokal ifaçılığının aktual problemləri barədə geniş məlumata **(PK-6);**
- akademik vokal ifaçılıq sənətinə aid bilik və səriştəsini təcrübədə tətbiq etməyə **(PK-7) ;**

**Milli vokal -**

iİfaçılıqda yüksək peşəkarlığa **(PK-1);**

- milli vokal ifaçılığın bütün imkanlarından istifadə etmək bacarığına **(PK-2) ;**
- milli vokal ifaçılıq sənətinə aid elmi-nəzəri ədəbiyyatdan istifadə etmək bacarığına **(PK-3) ;**
- solo və ansambl ifaçısı, xor solisti, opera artisti qismində çıxış etmək səriştəsinə**(PK-4);**
- yaradıcılıq prosesində sənətşünaslıq üzrə nəzəri biliklərdən istifadəyə**(PK-5);**
- milli vokal ifaçılığın aktual problemləri barədə geniş məlumata **(PK-6);**
- milli vokal, xanəndəlik, aşıq ifaçılıq sənətinə aid bilik və səriştəsini təcrübədə tətbiq etməyə **(PK-7) ;**

**Xanəndə -**

ifaçılıqda yüksək peşəkarlığa **(PK-1);**

- xanəndəlik sənətinin bütün imkanlarından istifadə etmək bacarığına **(PK-2) ;**
- xanəndəlik sənətinə aid elmi-nəzəri ədəbiyyatdan istifadə etmək bacarığına **(PK-3) ;**
- solo və ansambl ifaçısı,opera artisti, orkestrin müşayiətilə solist qismində çıxış etmək səriştəsinə**(PK-4);**
- yaradıcılıq prosesində sənətşünaslıq üzrə nəzəri biliklərdən istifadəyə**(PK-5);**
  yanəndəlik sənətinin aktual problemləri barədə geniş məlumata**(PK-6);**
- xanəndəlik sənətinə aid bilik və səriştəsini təcrübədə tətbiq etməyə **(PK-7) ;**

**Aşıq sənəti -**

- aşıq ifaçılığında yüksək peşəkarlığa **(PK-1);**
- aşıq ifaçılığının bütün imkanlarından istifadə etmək bacarığına **(PK-2) ;**
- aşıq ifaçılıq sənətinə aid elmi-nəzəri ədəbiyyatdan istifadə etmək bacarığına **(PK-3);**
- solo ifaçısı, ansambl solisti qismində çıxış etmək səriştəsinə**(PK-4);**
- yaradıcılıq prosesində sənətşünaslıq üzrə nəzəri biliklərdən istifadəyə**(PK-5);**
- aşıq ifaçılığının aktual problemləri barədə geniş məlumata **(PK-6);**
- aşıq ifaçılıq sənətinə aid bilik və səriştədən təcrübədə istifadə etməyə **(PK-7) ;**

***İstehsalat-pedaqoji sahəsi üzrə:***

- tədris prosesində ixtisas üzrə yaradıcılıq bacarıqlarını aşılamağa və təhlil aparmağa (**PK-8**);
- fənnin tədrisində kompüter texnologiyasından istifadəyə (**PK-9**);
- fənlə bağlı termin və ifadələrin tətbiqi bacarığına (**PK-10**);
- müasir təlim texnologiyalarını tətbiq etmək bacarığına (**PK-11**);

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- ümumi və fərdi iş formalarını təşkil etməyə (**PK-12**);
- fənnin tədrisi ilə bağlı bilikləri təqdim etmək və onları iş şəraitinə uyğunlaşdırmağa (**PK-13**);
- qrupların yaradıcılıq işlərinə rəhbərlik etməyə (**PK-14**);
- ixtisas biliklərini düzgün və yığcam ifadə etməyə (**PK-15**);
- yaradıcılıq işlərinin planlaşdırılması və aparılmasına(**PK-16);**
- ümumi və fərdi iş formalarını təşkil etməyə (**PK-17) ;**
- yaradıcılıq axtarışlarının nəticələrini ifaçılıq fəaliyyətində tətbiq etməyə və yaradıcılıq işlərinin təqdimatını hazırlamağa (**PK-18) ;**
- ifaçı kollektivlərinin işində iştirak etməyə (**PK-19) ;**

***Pedaqoji sahə üzrə:***

- ümumtəhsil, texniki-peşə, orta ixtisas təhsili müəssisələrində və ali təhsilin bakalavriat səviyyəsində ixtisas fənlərinin tədrisini aparmağa (**PK-20**);
- elektron kitabxanalardan, referativ jurnallardan, internetdən məlumat əldə etməyə (**PK-21**)

## 4. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060304 - Solo oxuma (sahələr üzrə)** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- yaradıcılıq;

- pedaqoji;
- təşkilati-inzibatçılıq və s.

**4.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.**

***Yaradıcılıq sahəsi üzrə:***

- kamera və ya opera müğənnisi,solo ifaçı, vokal ansamblın (muğam üçlüyü), xorun üzvü kimi,müxtəlif tərkibli orkestrlərin solisti kimi fəaliyyətə hazır olmaq;
- Azərbaycanın və xarici ölkələrin qabaqcıl təcrübəsindən istifadə etməklə vokal ifaçılıq sahəsində aparılan və yaradıcılıq işlərini təhlil etmək və nəticələri ümumiləşdirmək;
- vokal musiqinin müxtəlif janrlarından, muğam dəstgahlarından, təsnif və xalq mahnılarından, müxtəlif üslub və təmayüllərə aid olan bəstəkar əsərlərindən ibarət geniş və rəngarəng ifaçılıq repertuarı hazırlamaq;
- musiqi ifaçılarının müsabiqə və festivallarında iştirak etmək;
- Türk xalqlarının epik yaradıcılıq nümunələrinə bələd olmalı, klassik Azərbaycan dastanlarını və ənənəvi aşıq havalarını bilməli, bu havaları vokal-instrumental və ya instrumental şəkildə ifa etməli bacarmalı;
- Mövcud olan müxtəlif aşıq ifaçılıq məktəbləri və aşıq poeziyasının klassik formaları haqqında biliyə malik olmalı, saz alətinin morfologiyasını,ifa xüsusiyyətlərini mükəmməl bilməli;

***Pedaqoji sahə üzrə:***

- fərdi və qrup dərsləri aparmaq;
- pedaqoji təcrübəyə rəhbərlik etmək;
- müasir proqram təminatından istifadə etmək;
- ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etmək;
- ixtisasın tədrisinə dair informasiyaların toplanması və emalında İKT-dən istifadə etmək və s.

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- yaradıcılıq və tədris kollektivlərinin işini təşkil etmək;
- fəaliyyət nəticələrini proqnozlaşdırmaq üçün elmi yenilikləri tətbiq etmək;
- qəbul olunmuş qərarların nəticələrini kəmiyyət və keyfiyyətcə qiymətləndirmək və s.

**4.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyal arın kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr **bilməlidir:**<br>- psixologiyanın metodlarını, psixologiyanın əsas istiqamətlərini, qarşılıqlı münasibətlərin psixologiyasını, tələbə psixologiyasını;<br>- ixtisasa aid pedaqoji ədəbiyyatı öyrənməyi, xarici dildə oxuyub başa düşməyi;<br>- Azərbaycanda ali təhsil sistemini, təlim prosesi və təhsilin məzmununu, elmi-tədqiqat (müəllim və tələbə) işinin metodikasını və s.<br>**bacarmalıdır:** | **10** | **MHF–B01** Ali məktəb pedaqogikası<br><br>**MHF–B02** Yaradıcılıq psixologiyası<br><br>**MHF–B03** Xarici dil<br><br>**MHF–B04** Seçmə fənn* | **2**<br><br>**2**<br><br>**4**<br><br>**2** | **ÜK-1 ÜK-2 ÜK-3 ÜK-4 ÜK-5 ÜK-6 ÜK-7 ÜK-8 ÜK-9 ÜK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı;<br>- ixtisasa aid xarici dildə elmi ədəbiyyatı tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- məşğələləri planlaşdırmağı və aparmağı, elmi-tədqiqat işini yerinə yetirməyi, eksperiment aparmağı və nəticələri tətbiq etməyi.<br>**yiyələnməlidir:**<br>- tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə;<br>- xarici dildə lüğətin köməyilə oxumaq və yazmaq vərdişlərinə;<br>- ali təhsil müəssisəsində tədris və tədqiqat işləri aparmağa və s. | | | | |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənlər bölümü**<br>Bu fənlərin öyrənilməsi nəticəsində təhsil alan<br>**bilməlidir:**<br>**<u>Akademik vokal</u>**<br>-opera və ya kamera müğənniliyindən asılı olaraq vokal ifaçılığının spesifik xüsusiyyətlərini;<br>- vokal ifaçılıq sənətinin təkamülü prosesində görkəmli ifaçıların fəaliyyəti və onların yaradıcılıq prinsip və metodlarını;<br>- müasir dövrdə vokal ifaçılıq sənətinin aktual problemlərini;<br>-səsin spesifik xüsusiyyətləri və imkanlarını;<br>-dünya və Azərbaycan bəstəkarlarının vokal əsərlərini;<br>- musiqinin janr və formalarını;<br>- dünya musiqi sənətinin əsas təmayüllərini, Azərbaycan bəstəkarlarının yaradıcılığında, o cümlədən vokal əsərlərində təzahür edən üslub xüsusiyyətlərini;<br>XX əsrin mədəniyyətini səciyyələndirən mürəkkəb və rəngarəng cərəyanlar, istiqamətlər, texnika növləri, üslub axtarışları nəticəsində musiqi sənətində yaranmış zəngin, çoxmənalı və ziddiyyətli mənzərəni;<br>**bacarmalıdır:**<br>**-** opera və ya kamera müğənnisi, vokal ansamblın üzvü, xor solisti qismində çıxış etməyi;<br>- iri və xırda janrlarda yazılmış musiqi əsərlərini ifaçılıq mövqeyindən təhlil etməyi;<br>- dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının vokal | **50** | **MİF-B01**<br>Vokal sənətinin müasir istiqamətləri<br><br>**MİF-B02**<br>İxtisas<br><br>**MİF-B03**<br>Ali məktəb tərəfindən müəyyən edilən fənn<br><br>**MİF-B04**<br>Seçmə fənlər | **4**<br><br>**16**<br><br>**26**<br><br>**4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br><br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-20**<br>**PK-21** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropa və Azərbaycan musiqisinə aid olan vokal əsərlərin bədii xüsusiyyətlərini təhlil etməyi;<br>- vokal əsərlərin notlarını asanlıqla üzdən oxumağı;<br>**yiyələnməlidir:**<br>vokal ifaçı üçün zəruri olan professional keyfiyyətlərə;<br>- vokal ifaçılığının tarixi, nəzəriyyəsi və metodikasına dair dərin biliklərə;<br>- bəstəkar yaradıcılığının janrları və formaları, o cümlədən vokal musiqinin janrları barədə dərin biliklərə;<br>- solo ifaçısı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi aparmaq səriştəsinə;<br>- ansambl ifaçısı kimi repertuar tərkibində iştirak etmək səriştəsinə;<br>- opera və ya xor partiyalarında rast gəlinən çətinliklərin öhdəsindən asanlıqla gəlməyə<br>**<u>Milli vokal</u>**<br>**bilməlidir:**<br>-opera və ya kamera müğənniliyindən asılı olaraq milli vokal ifaçılığının spesifik xüsusiyyətlərini;<br>- milli vokal ifaçılıq sənətinin təkamülü prosesində görkəmli ifaçıların fəaliyyəti və onların yaradıcılıq prinsip və metodlarını;<br>- müasir dövrdə milli vokal ifaçılıq sənətinin aktual problemlərini;<br>-səsin spesifik xüsusiyyətləri və imkanlarını;<br>-muğam ifaçılıq prinsipinin xüsusiyyətlərini;<br>-dünya və Azərbaycan bəstəkarlarının vokal əsərlərini;<br>- musiqinin janr və formalarını;<br>- dünya musiqi sənətinin əsas təmayüllərini, Azərbaycan bəstəkarlarının yaradıcılığında, o cümlədən vokal əsərlərində təzahür edən üslub xüsusiyyətlərini;<br>-XX əsrin mədəniyyətini səciyyələndirən mürəkkəb və rəngarəng cərəyanlar, istiqamətlər, texnika növləri, üslub axtarışları nəticəsində musiqi sənətində yaranmış zəngin, çoxmənalı və ziddiyyətli mənzərəni;<br>**bacarmalıdır:**<br>**-** opera və ya kamera müğənnisi, vokal ansamblın üzvü, xor solisti | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | qismində çıxış etməyi;<br>- iri və xırda janrlarda yazılmış musiqi əsərlərini ifaçılıq mövqeyindən təhlil etməyi;<br>- dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropa və Azərbaycan musiqisinə aid olan vokal əsərlərin bədii xüsusiyyətlərini təhlil etməyi;<br>- vokal əsərlərinin notlarını asanlıqla üzdən oxumağı;<br>**yiyələnməlidir:**<br>milli vokal ifaçısı üçün zəruri olan peşəkar keyfiyyətlərə;<br>- milli vokal ifaçılığının tarixi, nəzəriyyəsi və metodikasına dair dərin biliklərə;<br>- bəstəkar yaradıcılığının janrları və formaları, o cümlədən vokal musiqinin janrları barədə dərin biliklərə;<br>- solo ifaçısı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi aparmaq səriştəsinə;<br>- ansambl ifaçısı kimi repertuar tərkibində iştirak etmək səriştəsinə;<br>- opera və ya xor partiyalarında rast gəlinən çətinliklərin öhdəsindən asanlıqla gəlməyi<br><br><br>**<u>Xanəndə</u>**<br>**bilməlidir:**<br>- solo xanəndə və ya opera solisti kimi vokal ifaçılığının spesifik xüsusiyyətlərini;<br>-xanəndəlik sənətinin təkamülü prosesində görkəmli ifaçıların fəaliyyəti və onların yaradıcılıq prinsip və metodlarını;<br>-müasir dövrdə xanəndəlik sənətinin aktual problemlərini;<br>-səsin spesifik xüsusiyyətləri və imkanlarını;<br>-Azərbaycan bəstəkarlarının vokal əsərlərini;<br>-musiqinin janr və formalarını;<br>-dünya musiqi sənətinin əsas təmayüllərini, Azərbaycan bəstəkarlarının yaradıcılığında, o cümlədən vokal əsərlərində təzahür edən üslub xüsusiyyətlərini;<br>- XX əsrin mədəniyyətini səciyyələndirən mürəkkəb və rəngarəng cərəyanlar, istiqamətlər, texnika növləri, üslub axtarışları nəticəsində musiqi sənətində yaranmış | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | zəngin, çoxmənalı və ziddiyyətli mənzərəni<br>**bacarmalıdır:**<br>**-** xanəndə,opera solisti və ya vokal ansamblın (muğam üçlüyü) üzvü, qismində çıxış etməyi;<br>- muğam nümunələrini, iri və xırda janrlarda yazılmış musiqi əsərlərini ifaçılıq mövqeyindən təhlil etməyi;<br>- dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropavə Azərbaycan musiqisinə aid olan vokal əsərlərin bədii xüsusiyyətlərini təhliletməyi;<br>**yiyələnməlidir:**<br>-xanəndə ifaçı üçün zəruri olan professional keyfiyyətlərə;<br>-xanəndə ifaçılığının tarixi, nəzəriyyəsi və metodikasına dair dərin biliklərə;<br>- bəstəkar yaradıcılığının<br>janrları və formaları, o cümlədən vokal musiqinin janrları barədə dərin biliklərə;<br>- solo ifaçısı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi aparmaq səriştəsinə;<br>- ansambl ifaçısı kimi repertuar tərkibində iştirak etmək səriştəsinə;<br>**<u>Aşıq sənəti</u>**<br>**bilməlidir:**<br>-Türk xalqlarının epik yaradıcılıq nümunələrini bilməli;<br>-klassik Azərbaycan dastanlarını və ənənəvi aşıq havalarını mənimsəməli, bu havaları vokal-instrumental və ya instrumental şəkildə ifa etməli bacarmalı;<br>-mövcud olan müxtəlif aşıq ifaçılıq məktəbləri və aşıq poeziyasının klassik formaları haqqında biliyə malik olmalı;<br>-saz alətinin morfologiyasını və ifa etməyi bilməlidir.<br>-dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropavə Azərbaycan musiqisinə aid olan vokal əsərlərin bədii xüsusiyyətlərini təhlil etməyi;<br>**yiyələnməlidir:**<br>-aşıq sənəti üçün zəruri olan professional keyfiyyətlərə;<br>-aşıq sənətinin tarixi, nəzəriyyəsi | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | və metodikasına dair dərin biliklərə;<br>- aşıq yaradıcılığının janrları və formaları, barədə dərin biliklərə;<br>- aşıq ifaçısı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi aparmaq səriştəsinə;<br>- ansambl tərkibində iştirak etmək səriştəsinə. | | | | |
| **MEY-B00** | **Pedaqoji və yaradcılıq təcrübəsi**<br>Magistr aşağıdakıları **bacarmalıdır**:<br>- konsert ifaçısı kimi çıxışı planlaşdırmağı;<br>- dinləyici auditoriyasının tərkibindən asılı olaraq repertuar seçməyi;<br>- solo və ya ansambl ifaçısı, yaxud opera solisti qismində çıxış etməyi;<br>- məktəbəqədər və məktəb səviyyəsində uşaqlarla çalışmağı;<br>- hazırladığı yekun yaradıcılıq proqramı ilə açıq konsertdə çıxış etməyi və s. | **30** | Yaradıcılıq təcrübəsi<br><br>Pedaqoji təcrübə<br><br>Yekun yaradıcılıq işinin müdafiəsi (təqdimatı) | **6**<br><br>**6**<br><br>**18** | **ÜK-1**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-10**<br>**PK-3**<br>**PK-4**<br>**PK-7**<br>**PK-8**<br>**PK-16**<br>**PK-18**<br>**PK-20** |
| **Kreditlərin ümumi sayı** | | **90** | | **90** | |

** Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir*

**4.3.** İxtisası üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 72
o cümlədən:
- nəzəri təlim – 30 həftə
- təcrübələr (pedaqoji və yaradıcılıq təcrübələri) – 8 həftə
- imtahan sessiyaları – 10 həftə
- yekun yaradıcılıq işinin hazırlanması və müdafiəsi (təqdimatı) – 12 həftə
- tətillər – 12 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060304 - Solo oxuma (sahələr üzrə)** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və yaradıcılıq işlərinin yerinə yetirilməsi üçün - müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalara, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi, elmi adı və ya fəxri adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslərdə cəlb oluna bilər.

**5.3.** Magistrlik yaradıcılıq işinə rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı, elmi dərəcəsi və ya fəxri adı olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı fərdi dərs,məşq, mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir

6.2. Magistr hazırlığı üzrə tədris prosesində perfomans, şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və təcrübi iş və digər metodlardan istifadə edilə bilər.

6.3. **060304 - Solo oxuma (sahələr üzrə)** ixtisası üzrə magistr hazırlığında yaradıcılıq və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında, bunların nəzdindəki məktəblər və yaradıcılıq studiyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

7.1. Yekun dövlət attestasiyası yekun yaradıcılıq işinin müdafiəsindən (təqdimatından) ibarətdir. Yekun yaradıcılıq işinin məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun təqdimatı Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş qaydalarla müəyyənləşdirilir.

7.2. İxtisaslaşdırılmış Şuraların sədrləri Təhsil Nazirliyi, tərkibi ali müəssisəsi tərəfindən təsdiq olunur.

7.3. Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistrali peşə ixtisas dərəcəsivə dövlət nümunəli diplom verilir.

7.4. İmtahanlar və Yekun Dövlət Attestasiyası zamanı tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistemlə həyata keçirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini,
Elm, ali və orta ixtisas təhsil
şöbəsinin müdiri

______________________Yaqub Piriyev

"_____" ______________ 2017-ci il

Mədəniyyət və İncəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri

________________Validə Məmmədova

"_____" ______________ 2017-ci il

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Elmi Metodiki-Şurasının
"İncəsənət" bölməsinin sədri

___________________ Zemfira Qafarova

"_____" ______________ 2017-ci il